**UOT: 39**

# TƏBRİZ ŞƏHƏRİNİN KARVANSARAYLARI
## (XIX – XX əsrin əvvəlləri)

**İ.G.MƏMMƏDOVA**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***ilhame.mamadova@gmail.com***

*Şəhər mədəniyyətinə xas olan orta əsr tikililəri arasında karvansaraylar mühüm yer tutur. Mürəkkəb söz olan karvansaray iki kəlmədən — "karvan" və "saray"dan ibarətdir. Karvan dəvə ilə hərəkət edən dəstə, saray isə "bina", "tikili" anlamına gəlir. Karvansaraylar dövlətin yaranması ilə peyda olmuş, mərkəzi hakimiyyətin güclənməsi və ticarətin inkişafı ilə əlaqədar inkişaf etmişdir.*

**Açar sözlər:** Azərbaycan, Təbriz, karvansaray, karvan, dəvə

Karvansarayın ilk dəfə Assuriyada e.ə. II-I minilliklərdə meydana gəldiyi ehtimal edilir (1, 269). Geniş ərazilərə malik Əhəmənilər imperiyasının nizamlı yolları olmadığından dayanacaqlara ehtiyac vardı. Ərazinin iqliminin quru, şəhər və kəndlərarası məsafənin uzaq olması səbəbindən azuqə əldə etmək həyati məsələ idi və belə dayanacaqlarsız ölkənin müxtəlif məntəqələri arasında əlaqə saxlamaq qeyri-mümkün idi (2, 338).

İslamdan öncə yol kənarlarında *sabat, robat, karbat* və digər dayanacaqlar düzəldilirdi. Sabat su anbarı, bir neçə oturacaq və ya otaqdan ibarət idi. Robatın hovuz və su anbarından əlavə, həyətinin dövrəsində bir neçə otağı olurdu. Onlardan qısa müddət gecələmək məqsədilə istifadə edilirdi. Karbat da robat kimi 2-3 otağa malik idi (3, 33-34). Orta əsrlərdə yolboyu dayanacaqların sayı durmadan artır və yuxarıda adı çəkilən binalardan daha rahat karvansaraylar genişlənirdi. Ticarətçilər, səyyahlar, zəvvarlar və digər qrupların karvanları uzun yol qət edib yolüstü karvansaraylardakı istirahət otaqlarında — hücrələrdə dincəlir və yollarına davam edirdilər. Karvansarayların sayının artması bir tərəfdən ticarətin inkişafı səbəbindən, digər tərəfdən ərazinin təbii çoğrafi şəraiti ilə bağlıydı. Karvan yollarının keçdiyi bölgələrdə əhali sıxlığı olardısa, o zaman orada karvansaray tikməyə ehtiyac qalmırdı. Əcnəbilər yerli

sakinlərdən yardım alır, onların evində kirayə qalmaqla kifayətlənirdilər.

Müvəqqəti yaşayışı təmin edən karvansaraylar xarici və yerli məhsulların müamilə olunduğu, müsafirlərin istirahət etdiyi, müxtəlif xalqların adət-ənənəsinin, dünyagörüşünün mübadiləsi məkanı sayılırdı. Onlar Orta əsrlərdə dini-siyasi, iqtisadi, hərbi funksiya yerinə yetirirdilər. Zaman keçdikcə karvansarayların ticari əhəmiyyəti artırdı. Tədricən şəhərdaxili karvansaraylar ticarət mərkəzləri kimi fəaliyyət göstərməyə başlayırdı. Onların hər birində eyni adlı məhsul müamilə edilirdi. Tacirlər burada kommersiya yeniliklərini, pulun kursunu öyrənə bilirdilər.

Təbrizə Orta əsrlərdə təşrif buyuran Avropa səyyahları şəhərin maddi mədəniyyətinin zənginliyini dönə-dönə vurğulayırdılar. Təsadüfi deyil ki, J.Şarden XVII əsrdə Təbrizdə 300 sayda karvansarayın olduğunu söyləyir. Müəllif əlavə edir ki, elə geniş karvansaraylar var ki, hər birində 300 adam yerləşə bilər (4, 72-73). Ö.Çələbi isə burada təqribən 200 karvansarayın varlığını və onlardan ən məşhurlarının Zübeydə, Şah Cahan, Şah İsmayıl, Pirbudaq, Şahi-Cahan qızı Aləmşah karvansarayları olduğunu vurğulayır (5, 24). Bu fakt bir daha şəhərin yüksək iqtisadi-siyasi və mədəni səviyyəsindən soraq verir. Səyyahlar Təbrizə qonşu şəhərlərdə də karvansarayların sayının çox olmasından bəhs edirlər. Ö.Çələbinin müasiri olmuş F.Kotov Ərdəbildə 200 karvansarayın olduğunu qeydə almışdır (6, 48).

Ötən zamanlarda olduğu kimi, XIX əsrdə də Təbriz Avropa ilə ticarətdə İranın başlıca şəhəri idi. Bu amil şəhərdə karvansarayların artmasına zəmin yaradırdı. Qacarlar zamanında Təbrizdə oturan ölkə vəliəhdləri burada xeyli abadlıq işləri aparırdılar. Əvvəldə vurğulandığı kimi, Abbas Mirzə Azərbaycan yollarını, körpüləri bərpa etməklə bahəm, bu diyara səfərə gələnlərin rahatlığı naminə karvansaraylar da inşa etdirir (7, 98). Abbas Mirzənin vəliəhdliyi dövründə Təbrizdə aparılan quruculuq işləri sonrakı onilliklərdə də davam edilirdi. Tədqiq etdiyimiz Qacarlar dövründə əvvəlki mərhələdə istifadə olunan tikinti üslubu və daxili interyer demək olar ki, saxlanılır, yeniləri ilə yanaşı, bir çox qədim binalar yenidən təmir-bərpa olunurdu. Nəsrəddin şahın hakimiyyəti dövründə də bu iş davam etdirilir. Nəsrəddin Mirzənin vəliəhdliyi zamanında baş nazir Əmir Kəbir şəhərin abadlığı naminə xeyli işlər görür, küçələr, yollar, keçidləri bərpa etdirir, ticarəti və əmin-amanlığı qorumaq məqsədilə qarovulxanalar və alveri genişləndirmək məqsədilə öz adına "Əmir karvansarayı"nı tikdirir (8, 150).

Şəhərdaxili karvansarayların əksəriyyəti vəqf idarəsindən asılı idi. Tacirlər "*sərqofli*" adlı vergi ödəməklə hücrələri aylıq icarəyə götürürdülər (9, 9). Buradakı hücrələrin qorunması *odabaşının* (*saraydar*) öhdəsinə düşürdü. Dini qurumların nəzarətində olan karvansaraylara birbaşa zadəganlar və saray adamları sahiblik edirdi. Həmin yerlərdə zəvvarlar və rəsmi qonaqlar üçün gecələmə pulsuz olardı.

XIX əsrdə Təbrizdə irili-xırdalı 200 sayda karvansaray fəaliyyət göstərirdi (10, 67). Onların əksəriyyəti sahibinin adını daşıyırdı: *Məşədi Məhəmməd,*

*Hacı Mirzə Məhəmməd Əmin, Mirzə Rza, Məşədi Cəfər, Hacı Hüseyn, Hacı Xəlil, Hacı Məhəmməd Cəfər, Molla Məhəmməd dayı, Kərbəlayi Allahverdi, Mirzə İbrahim, Həsən karvansarayı* və s. Bunlardan başqa, peşə mənsubiyyətini bildirən karvansaray adlarına da rast gəlinir: *Ağacçı karvansarayı, Kişmişçilər karvansarayı* və s. Orta əsrlərdə Təbrizə aparan yollarda da çoxsaylı karvansaraylar inşa edilirdi. Səfəvilər dövründə Təbriz-Miyanə yolunda *Şibli*, Təbriz-Hərvabad yolunda *Gərdaneyi*, Təbriz-Zəncan yolunda *Gilək*, Təbriz-Əhər yolunda *Vinər*, Qacarlar dövründə Təbriz-Əhər yolunda *Arpaderaz*, Təbriz-Marağa yolunda *Cənubi Əcəbşir*, *Xoranək*, Təbriz-Ordubad yolunda *Çaparxana* və s. tikilib istifadəyə verilmişdi.

Karvan yollarının kənarlarında su quyuları, namazgahlar, qədəmgahlar, dincəlmək üçün kiçik yerlər (sabat) təşkil olunurdu. Karvansaraylar əsasən, karvan yollarının kənarında və şəhər daxilində inşa edilirdi. Təbrizə məxsus orta əsr karvansarayları əsasən, dördkünc planda salınırdı. Səfəvilər dövründən başlayaraq ölkə karvansaraylarının memarlıq planında yeni elementlər peyda oldu. Belə ki, onlar dördbucaq planla yanaşı, səkkizbucaqlı və eyvanlı da tikilməyə başlandı. Onların əmniyyəti daha üstün sayılırdı. Qacarlar dövründə bütün İranda dördbucaq və səkkizbucaqlı (xaricdən dairəvi) karvansaraylar mövcud idi (3, 103). Lakin Təbrizdə səkkizbucaqlı plana, demək olar ki, rast gəlinmir.

İlk vaxtlar daxili həyəti və ətrafında heyvanlar üçün enli dalanları olan karvansaraylar inşa edilirdi. Həmin tikililər gecələmək üçün nəzərdə tutulmur, sadəcə karvan, ya çaparların lazımi tələbatı ödənildikdən sonra onlar yollarına davam edirdilər. Sonralar isə bu binaların layihəsi bir qədər dəyişdirilərək mərkəzi həyətin ətrafında dördbucaqlı otaqlara malik tikilirdi. Sonuncular dörd tərəfdən hasarlanır, dövlət tərəfindən yüksək əmniyyətə malik idilər. Müsafirlərin qaldığı otaqlar eyvana malik idi və hava cərəyanı məhz buradan içəri daxil olurdu.

Şəhərdaxili karvansarayların əksəriyyəti ikimərtəbəli, yolüstü tikilənlər isə birmərtəbəli olurdu. Hasarları bişmiş kərpicdən təqribən 6-7 m hündürlüyündə hörülürdü. Onların hər bir küncündə quldurlardan qorunmaq üçün yarımdairəvi bürclər yerləşirdi. Hər karvansaray kənarı kərpiclə tikilən, gəclə bəzədilən yalnız bir giriş darvazasına malik idi. İkitaylı darvazalar qoz, şam və digər möhkəm ağaclardan düzəldilirdi. Otaq qapılarının əsas materialı sərv, qovaq, çinar ağacından olurdu (9, 7). Gündüzlər həmişə açıq saxlanan darvaza iki bürcün arasında yerləşir və baştağa malik olurdu. Binanın sahibi, tikilmə tarixi və bənnanın adı baştağın üzərindəki kaşı və mərmər üzərində həkk edilirdi. Baştağın üstündə balaxana (kiçik gözətçi otağı) tikilirdi.

Darvaza üstüörtülü dalanlara açılır və sonuncu isə həyətə istiqamətlənirdi. Onların hər iki tərəfində daş səkilər vardı. Qonaqlar daxil olan zaman orada oturub, yoxlamadan keçirdilər. Həyətdə malların çəkilməsi üçün qapanxana yerləşirdi. Hər bir karvansaray qiymətli mal daşıyan karvanlar üçün təhlükəsizlik yeri olub, məscid, mətbəx, anbar, tibbi ehtiyaclar üçün xəstəxana və

daruxana, heyvanlar üçün tövlə, baytarlıq məntəqəsi, kitabxana, hamam, ayaqqabı təmirxanası və s.-yə malik olurdu. Yaşıllığa bürünən həyətin mərkəzində hovuz yerləşirdi. Otaqların qapıları həyətin dörd tərəfinə açılırdı. Tövlələr onların arxasında yer alır, qapıları isə künclərə, yəni bürclərə açılırdı. Müxtəlif heyvanlar (dəvə, at, qatır, uzunqulaq) eyni tövlədə saxlanmaz, birlikdə narahat olardılar. XVII əsr səyyahı J.B.Tavernye bu xüsusda yazır: "Bu tövlələrdə hər atın başının üstündə kiçik bir pəncərə vardı. Hər pəncərə bir otağa baxırdı, hər kəs öz otağından atına necə baxıldığını görə bilirdi, aşpazlıq edən xidmətçilərin yeri bu pəncərələrdən idi" (11, 66). Ayaqyolu və hamam da həyətin künc tərəfində inşa olunurdu. Əvvəllər otaqların qapısı birbaşa həyətə, Qacarlar dövründə isə eyvanların əlavə edilməsi ilə çıxış sonuncudan keçməklə baş tuturdu. Otaqların qapı-pəncərələrinə, eyvanın hücrələrinə pərdələr asılırdı.

Binanın tavanı düz, maili və ya qövsvari şəkildə düzəldilirdi. Yağış suyu divarboyu yerləşdirilən navalça vasitəsilə damdan həyətə axıdılırdı. Həyət tərəfdən darvazanın hər iki tərəfində gözətçi və işçilər üçün otaqlar nəzərdə tutulurdu. Gecələr qapılar bağlandıqdan sonra "*odabaşı* və ya "*güdükçü*" adlı işçilər qarovulda dayanıb keşik çəkirdilər.

Karvansarayların daxilində su anbarları da vardı. Onlar ensiz və dayaz düzəldilir, tavanı binanın səthi ilə bərabər olurdu. Qalalarda olduğu kimi, onlarda da yağış suyu və damlardan süzülən yağıntılar su anbarına axırdı (12, 32-33). Bəzi su anbarlarının üzərində müsafirlərin dincəlməsi və namaz qılması üçün küləfirəngilər də tikilirdi. XIX əsrdə Təbrizdə olmuş rus səyyahı İ.N.Berezin bazar və karvansarayların təsvirini verərək qeyd edir ki, həyətin ortasında yerləşən böyük daş hovuz işçilərin istifadəsində idi, digər tərəfdə isə ibadət edənlər üçün yer vardı (13, 50).

Karvansaraylar bütün ölkə üzrə bərabər məsafələrdə, yəni karvanın bir gecəlik yoluna müvafiq tikildiyindən yolçuların işini asanlaşdırırdı. Dəvə karvanı hər gecə təqribən 5 fərsəx (təxminən 30 km) yol qət edə bilirdi. Bu amil Anadolu xanlarına da (Osmanlı, Krım və bəzi Ərəb ölkələrində karvansaraylar "xan" adlanırdı – İ.M) aid idi. Belə ki, Səlcuq dövrünə aid karvansaraylar 30-40 km intervalında inşa edilirdilər (14, 384). Onların girişinə yaxın yerdə hamam, məscid, aşpazxana, bazar, tövlələr, bəzən dəyirman da yerləşirdi. Hər gün axşam çağı şeypur və nağara sədaları altında Təbrizin giriş darvazaları bağlandığından gecə vaxtı şəhərə yetişən əcnəbilər şəhərkənarı karvansaraylarda qalmağa məcbur olurdular.

Təbrizin coğrafi şəraitinə və memarlıq xüsusiyyətlərinə müvafiq olaraq əksər karvansaraylar bişmiş kərpiclə, nadir hallarda isə çiy kərpic, taxta və bitki hörgüylə inşa olunurdu. Onların tağları, eyvan və divarları gəc, kaşı və digər bəzəklərlə örtülürdü. Onların üzərində oyma naxışlar, həkkaklıq və digər mahir daşişləmə üsullarına rast gəlmək olardı. Bundan başqa, daşdan inşa olunan karvansaray binaları da mövcud idi. Onlar ya yonulmuş daşlardan, ya da xırda çay daşlarından tikilirdi. Kərpic və daşdan əlavə, taxta, şüşə və s. əsas inşaat materialını təşkil edirdi.

Nağara sədası ilə karvan hərəkətə başlayırdı. Qrup şəklində yola çıxan müsafirlər dəstəsi, yəni karvanda bir sıra vəzifələr – *karvankeş* və ya *karvanbaşı* (bütün dəstələrin rəhbəri), *karvansalar* (karvan rəisi), *sarban* (dəvə sürən), *çarvadar* (yük heyvanlarına nəzarət edən), *çarvadarbaşı* (çarvadarların rəhbəri), *məkkari* (müsafirlərə minik və yük heyvanı icarəyə verən) vardı. Hərəkət marşrutu və saatının dəqiqləşdirilməsi, yolboyu istirahət üçün çeşmələrdə dayanmaq əmri, yem və lazımi vəsaitlərin alınması, epidemiya yayılmış ərazidən keçməməkdən ötrü həmin yerləri qabaqcadan öyrənmək və s. karvanbaşıya aid idi. Hərəkət vaxtı və yolu fəsillərə görə dəyişirdi. Müxtəlif ictimai mənsubluğu olan şəxsləri, ayrı-ayrı tayfaların nümayəndələrini, bir sözlə, çoxlu sayda insanları uzun müddət idarə etmək karvanbaşıdan böyük təcrübə tələb edirdi. Hamı ona ehtiram edirdi. O, karvanın gedəcəyi yollara yaxşı bələd olmalı və ixtiyarında olan silahlı dəstənin köməyi ilə karvanı sağ-salamat mənzil başına çatdırmalı idi (1, 269). Bəzən yolda bədbəxt hadisə baş verir və yolçulardan kimsə dünyasını dəyişirdi. Onu karvansarayadək çatdırıb, binanın yaxınlığındakı qəbiristanlıqda dəfn edirdilər.

Mübahisələri həll edən, gömrükdən keçərkən haqq ödəyən karvanbaşı tacirlər arasından seçilir və onun səfərboyu bir neçə işçisi olurdu. Karvanda vəzifəcə aşağı pillədə olanlar malları qablaşdırıb dəvələrə yükləyir, heyvanların yemini təmin edir və başqa xidməti işləri yerinə yetirirdilər. Çarvadarbaşıya hər biri 5-6 qatırın məsuliyyətini daşıyan bir neçə çarvadar tabe idilər.

*Aşpaz* məlum olduğu kimi xörək hazırlayır, çörəkçi çörək bişirir, abdar karvana su, çay paylayır və səfərə lazımi əşyaları — xalça-palaz, qab-qacaq, yorğan-döşək və s. qatırlara yükləyir, *çadırdar* fərraşlarla birgə çadır qurmaqla məşğul olur, *miraxur* bir neçə mehtərlə heyvanlar üçün müvəqqəti tövlə hazırlayır, at və qatırların torbalarını arpa-samanla doldururdu (14, 272). Qatırın üstünə salınmış xurcunlarda mətbəx əşyalarının (stəkan, nəlbəki, qənddan, qəfədan, qaşıq, çəngəl və s.) saxlandığı "həzar peşə" adlı taxta qutu, samovar, dudkeş, kömür kisəsi, qazanlar, sınmayan boşqablar, qəlyan, ney, çıraq və s. daşınırdı. Maraqlıdır ki, hətta minikdə gedəndə də qəlyan çəkilirdi. Bunun üçün xüsusi xidmətçi də səfərə gedirdi. Onun əsas işi qəlyanın hissələrinin saxlandığı "qobəl manqal" adlı cihazı və yanar odu daşımaq idi.

Azərbaycan şəhərlərindən İstanbuladək hərəkət edən karvan şaxtalı hava ilə üzləşirdi. Karvan üzvləri özləri ilə mütləq palaz götürməliydilər. Qarlı havada sürüşkən yollarda bəzən yüzlərlə palaz yola düzülür, sonuncu dəvə keçdikdən sonra onlar yığışdırılırdı. Ağır yük daşıyan dəvənin arxa ayağı sürüşərdisə, qarnı partlayıb həlak ola bilərdi (3, 26). Uzun səfərdən qayıdan dəvələr bir müddət, bəzən bir il istirahət etməli, kökəlməli idilər.

Karvanbaşıya tabe olan karvansalar karvanı yollarda baş verəcək təhlükədən (quldur basqını, soyğunçuluq və s.) mühafizə məqsədi ilə ayrılmış silahlı dəstə başçısı idi (1, 269). Soyğunçular əsasən gecələr karvana basqın edirdilər. Bunun üçün karvanda xeyli sayda tüfəngçilər olurdu. Sabit qiymətlərlə tacirlərin mallarını daşıyan dördayaqlıların sahibləri məkkarilər, şəxsi faytonla

gedən şəxslər və hətta piyadalar da silah gəzdirməyə məcbur idilər. Xanların, tayfa başçılarının torpaqlarından keçən ticarət karvanlarından dəvələrin sayına müvafiq bac alınırdı.

Karvansaraya çatarkən hər bir müsafir ona məxsus yükü şəxsən özü endirməli və otağa daşımalı idi. İstifadə olunacaq əşyaların əldə olunması, xörəyin bişirilməsi və digər gündəlik zəruri işlər də müsafirin öhdəsinə düşürdü. Hər karvansarayda malların qorunmasında cavabdeh olan *karvansaraydar* çalışırdı. Onun zəhmət haqqısını karvan üzvləri özləri ödəyirdilər. Karvansaraydar müştərilərə xidmətdən başqa, onlara qida məhsulları almaq da təklif edirdi. Ərzaq məhsullarını adətən, odabaşı satırdı. Karvansaraylar icarəyə də verilirdi.

Müştərilərin qaldığı otaqlar gündüz vaxtı tavandakı pəncərələrin işığı ilə, gecələr isə lampa, piysuz (çıraq) və ya şamla işıqlandırılırdı. Qış fəslində otaq, eyvan və tövlələrin qızdırılmasında divarda yerləşən buxarıdan istifadə edilirdi. Əksər karvansaraylarda otaqların xalça-palazı, yorğan-döşəyi və qab-qacağı olmurdu. Müsafirlər onları ətraf yerlərin sakinlərindən kirayə alar, nadir hallarda isə həmin əşyaları özləriylə götürərdilər. Karvansarayların hər biri eyni peşə sahiblərinə məxsus idi. Bundan əlavə, eyni şəhərdən gələn həmyerli tacirlər daima bir karvansaraya toplanırdılar (16, 263). Bununla da, informasiya kommunikasiya vasitələrinin zəif olduğu zamanda istənilən qərib adamı asanlıqla tapmaq mümkün olurdu.

Orta əsrlərdə Şərq ölkələrini gəzən Avropa səyyahlarının Təbriz karvansarayları haqqında verdiyi məlumatların əksəriyyəti XIX əsrədək qalmaqda idi. Müasir zamanda öz yerini yüksək təminatlı, rahat otellərə versə belə, Şərq və ümumazərbaycan mədəniyyətinin tərkib hissəsi olan karvansarayların öyrənilməsi Təbriz şəhərinin maddi mədəniyyətinə dair maraqlı faktlar üzə çıxarır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, V c. Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası, 1981, 582 s.
2.
3. –
4. Jan Şarden. Parisdən İsfahana səyahət. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov, Bakı: Elm, 1993, 96 s.
5. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Tərcümə edəni Seyidağa Onullahi, Bakı: Azərnəşr, 1997, 92 s.
6.
7.
8.
9. -
10.
11. Tavernier J.B. XVII. asır ortalarında Türkiye üzerinden İran'a seyahat. (çeviren: Ertuğrul

Gültekin), İstanbul: Kervan Kitabçılık Basın Sanayi ve Ticaret A.Ş., 1980, 112 s.
12.

13. Березин И.Н. Путешествие по Северной Персии. Казань: Типография губернского правления, 1852, 456 с.
14. Gonca Buyukmihchi. Caravansarais: The architectural treasures of Silk Road and the case of Kayseri-Sultanhani / Archi-Cultural Translations through the Silk Road. 2-nd International Conference, Mukogana Women′s Univ., Nishinomiya, Japan, Jule 14-16, 2012, 384-389 p.
15.

16.

**КАРАВАН-САРАИ ГОРОДА ТЕБРИЗ**
**(В XIX - НАЧАЛЕ XX ВЕКОВ)**

**И.Г.МАМЕДОВА**

**РЕЗЮМЕ**

Обеспечивающие временное проживание, караван-сараи, строились на окраинах дорог и внутри городов. В XIX веке в Тебризе действовали 200 крупных и мелких караван-сараев. Здесь отдыхали путешественники, продавались иностранные и местные товары. В караван-сараях купцы могли узнавать коммерческие новшества и курсы денег, охранять свои товары. В средние века караван-сараи играли важную роль в развитии торговли.

**Ключевые слова:** Азербайджан, Тебриз,караван-сарай, караван, верблюд

**CARAVANSARAIS OF TABRIZ CITY**
**(XIX-EARLY XX)**

**I.G.MAMMADOVA**

**SUMMARY**

Caravansarais were built on roadsides and inside cities and provided temporary living. There were 200 large and small caravansarais in Tabriz city in the XIX century. Guests were rested, foreign and local products were sold here. Merchants could learn commercial innovations and exchange rates and protect their goods in caravansarais. In Middle Ages caravansarais played an important role in the development of trade.

**Key words:** Azerbaijan, Tabriz, caravansarai,caravan, camel